Mətbuat konfransını giriş sözü ilə açan təhsil nazirinin müavini Elmar Qasımov Respublika Muğam Müsabiqəsinin ilk dəfə 2009-cu ildə keçirildiyini qeyd edib və bildirib ki, bu ilki müsabiqə Heydər Əliyev Fondu, Təhsil Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Milli Konservatoriyası və Muğam Birliyinin təşəbbüsü ilə təşkil olunub. E.Qasımov son illər muğam sənətinin qorunması və inkişafı istiqamətində görülən işlərdən danışıb, belə müsabiqələrin yüksək əhəmiyyəti olduğunu nəzərə çatdırıb. Nazir müavini bildirib ki, 18-35 yaşlı ifaçıların iştirak edə biləçəyi müsabiqəyə yanvarın 29-dan start veriləcək və sənəd qəbulu fevralın 20-dək davam edəcək. Seçim turunun iki mərhələdə keçiriləcəyini qeyd edən nazir müavini Münsiflər Heyətinin tərkibinə ustad sənətkarların daxil olduğunu bildirib.

E.Qasımov xarici ölkələrdən iştirakçıların və II Respublika Muğam Müsabiqəsi qaliblərinin bu ilin mart ayında keçiriləcək II Beynəlxalq Muğam Festivalına qatılacağını nəzərə çatdırıb.

Sonra Azərbaycan Milli Konservatoriyasının rektoru Səyavuş Kərimi müsabiqənin keçirilməsinin əsas məqsədi, eləcə də II Beynəlxalq Muğam Festivalı barədə məlumat verib.

Mətbuat konfransında media nümayəndələrinin sualları cavablandırılıb.